# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı



Gülxani PƏNAH

*(Əvvəli ötən saylarımızda)*

**Ç. Abdullayevin «Gedər-gəlməz» romanı**

80-ci illərdə ölkədə davam edən durğunluğa baxmayaraq zabit şərəfi anlayışı hələ də qalırdı». Kapitan Rudnitskinin atası general-mayor Pyotr Vasilyeviç Rudnitski Baş Qərargah zabiti olmuş, onun böyük qardaşı polkovnik Aleksandr Petroviç Rudnitski Almaniyada ordunun qərb qrupunda alaya rəhbərlik edirdi. Koxsan şəhərində İqor və Asanov-iki zabit az döyüçü ilə Əfqan müxalifətinə zərbə endirir və ikinji plemyotun arxasında olan İqor həlak olur. Az sonra Əfqanıstana gəlib Asanovu tapan, oğlunun son döyüşü barədə danışmağı ondan xahiş edən atanın gərgin və kədərli gözlərindəki «qürur» yazıçının nəsilliklə hərbiçi zabitlər ailəsində öz borjunun yerinə yetirərək vətən uğrunda ölməyi şərəf sayanların öz ideyalarına sadiq qaldığı haqda həqiqəti bu ailənin timsalında oxujuya çatdırır. Burada-Əfqanıstanda döyüşənlərin hamısı haqlı olaraq ölkəni bu müharibəyə sövq edən səbəblərdən asılı olmayaraq üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirən, əbədi olaraq yaddaşlarda qalan qəhrəmanlardır. Yazıçı neçə-neçə illər daha heç vaxt müharibədə iştirak etməmiş demaqoqların Əfqanıstanda həlak olan gənjləri işğalçı və müdaxiləçi adlandırmasına qarşı haqlı olaraq çıxır. O, öz qəhrəmanı kimi yaxşı başa düşürdü ki, «dünyada heç bir kəs ona hərbi borjunu vijdanla yerinə yetirməyi yalnız jinayət avantürasında iştirak, zabitin döyüş meydanındakı ölümü isə ağılsız komandanlığın işğal siyasətindəki xoşagəlməz təsadüf olduğunu sübut edə bilməyəjək».

Əsərdə Əfqanıstan müharibəsində Şərq imperiyasının məğlubiyyətini jiddi jəhdlə təşkil etməyə çalışan Amerikada (Ronald Reyqan ABŞ prezidenti seçiləndən) «yaxşı təşkil edilmiş xəbərləşmə və kuryer sistemi» fəaliyyətə başladığı, amerikalıların öz şəbəkələrini Pakistanın 20 şəhərində qurduğu, bu kəşfiyyat informasiyası ilə onların paralel olaraq İran, İraq müharibəsi, gərginlik hökm sürən Pakistan, Hindistan sərhəddi haqqında, Pakistan sərhəddinə toplaşan Hindistan ordusu haqqında lazımi məlumatlar da aldığını real faktlarla verir: «Yüksəklikdə, dağlarda kiçik Pakistan şəhəri Çitralda MKİ-nin rezenturasının yerli informasiya toplanış məntəqəsinin açıldığı, onun həm SSRİ, Çin, Hindistan, həm də Pakistan və Əfqanıstan sərhədlərinin keçdiyi strateci qovşağa nəzarəti, buradan məlumatların birbaşa müstəqil qərar qəbul etmək hüququna malik olan baş zabitinin oturduğu Pişəvəriyə ötürüldüyü bildirilir. Bir çox əməliyyatları planlaşdırmağı, mujahid dəstələrinə silah çatdırmaq, dağınıq dəstələr arasında əlaqə yaratmaq haqqında məlumatların buradan ötürüldüyünü göstərən yazıçı tezliklə Çitralda sovet komandirlərinin danışıqlarını tutan Xüsusi radiolokasiya stansiyasının tikildiyini, ən ağır döyüşlərdə Pişəvər və Çitraldan amerikalı rezidentlərin məlumatları ilə istiqamətlənən müjahidlərin Jəllilabada getdiyini yazır.

Yazıçı müharibədən sonra Çitralda MKİ-nin son rezidenti Jeyms Bennetin 94-ün əvvəlində tajik müxalifətinin tamamilə məğlubiyyətə uğradığı və müxalifətin Əfqanıstandakı nümayəndələri ilə işləmək vaxtı tam aydınlaşanda gəldiyini, onun bir neçə dil bildiyini, Şərq problemləri üzrə əsərlərin müəllifi olduğunu, onun, müavini Alfred Herrikin özünəməxsus xarakterik xüsusiyyətlərinin qabarıq jizgilərini əsərdə tam dolğunluğu ilə əks etdirir. Onların məqsədi bir tərəfdən fundamentalistlərlə hər jür mübarizə aparıb Şərqdə İran tipli yeni islam dövlətlərinin yaranmasına mane olmaq, digər tərəfdən bütün MDB-ni və ən əsası Rusiyanın jənub jinahlarını bu qədər zəiflədən tajik müxalifətinin fanatiklərinə «bitərəfjəsinə» kömək etməkdir. Onları narahat edən Moskvada seçkidə kommunist və ya millətçilərin qalib gəlməsi, onların yenidən imperiyanı birləşdirmək istəmələridir. Tarixin təkrarlanmasından qorxan Amerika, onların nə isə demokratik imperiya ittifaq simbiozu yarada bilmələrindən də narahatdır. Bunun da Tajikstanda qarşıdurma yaradan tərəflərdən də asılı olmayajağını bilən MKİ-si qaçaqmalçı Nurulla ilə iş aparmaqlarını özlərinin «fajiəsi» bilir, bəşərin ən yaxşı nümayəndələri ilə iş «görmədiklərindən» narazıdır. Çünki Nurulla onlara bir tərəfdən lazımi məlumatları çatdırırsa, digər tərəfdən sərhəddən iri narkotika keçirir. Tajikstan sərhədini yarmağa çalışan Nurulla xeyli adamını itirərək dağlara çəkilir və vertolyotu vurub və elə burada o rus zabitini Kreçetovu götürür. Bu zabit isə amerikalıları əvvəljə maraqlandırmır, axı sərhəddə tutulmuş zabit polkovnik də olsa nə deyə bilər? Olsa-olsa zastavalardan birinin müdafiəsinin təşkilini danışar. Bu məhsuldar və maraqlı deyil. Əsərdə maraqlı hadisələrdən biri Kreçetovun və vertolyot məsələsinin yerində öyrənilməsi üçün Nurullanın yanına uçan Bennetin getməsindən sonra quldurların onların yerinə hüjum çəkib, Hekkerti və onun digər əməkdaşlarını öldürməsi və bunu törədənlərin işi yaxşı təşkil etməsi, hüjumçularda dəqiq fəaliyyət planı, evin otaqlarının «sxemi» olması, onların mühafizə sisteminə «yaxşı» bələd olmalarıdır. Hüjumçulara bu planı və otaqların sxemini «kim verə bilərdi?». Stansiya haqqında «belə yaxşı məlumatlı olan o adam kimdir». Pişəvərdəki regional rezident Stiven Moss da bura gəlib Bennetlə birlikdə bu adamı kuryer və əlaqələndirijilər arasında axtarmaq qənaətinə gəlir.

MKİ-nin əməkdaşlarının da bir zabit kimi bəzi müsbət keyfiyyətlərini yazıçı oxujuya çatdırmağı diqqətdən qaçırmır. Nurullanın öz adamlarını dolandırmaq üçün narkotika alverindən əl çəkməməsi, amerikanın onlara verdiyi pulu bank hesabına keçirməsi, ümumilikdə Nurullanın onlara tapşıran işin öhdəsindən pis gəlməsə də, onunla iş görmək Bennəti və onun ətrafındakıların «lap ürəyini bulandırır». Onları «əsl həşərat» adlandırır. Çünki «pul üçün hər şey» eləməyə hazırdırlar. Namus və əxlaq haqqında anlayışları da yoxdur. Belələrinin satqın olmasından da şübhəlidirlər.

Yazıçı Əfqanıstanda törədilən müharibələrdə əli olan ABŞ-ın MKİ-nin fəaliyyətindən az da olsa bəhs edir. Əslində bu ölkədə xalqın-qardaşın qardaşa silah qaldırmasında Amerika imperialist qüvvələrin rolu böyük idi. ABŞ-ın əfqan inqilabına qarşı milyardlarla pul xərjlədiyini dünya mətbuatı, xüsusilə İngilis mətbuatı təsdiq edir. ABŞ-ın keçmiş SSRİ-nin Əfqanıstana kimyəvi silah ötürməsiylə bağlı söylədiyi məlumatlar əslində yalan məlumatlar idi. MKİ-nin maliyyələşdirdiyi əfqan basmaçıları əfqan xalq demokratik partiyasının üzvlərini, ailələrini, uşaqlarını qətlə yetirirdilər. Əfqan demokratları Əfqanıstanda ABŞ-ın MKİ-nin üzvlərini həbs edərək, onları efirə çıxararaq MKİ-nin əməkdaşları olduğunu sübut edir. ABŞ-ın Kabuldakı səfirliyi vasitəsilə partlayıjı maddələrlə təmin olunmuş, nayomniklərin əli ilə terrorlar, qətllər törətmiş olduqlarını, günahsız insanlara qarşı törətdikləri saysız-hesabsız jinayətlərin üstünü açır, dünyaya bildirirdilər. Aleksandro Aseeyevski öz kitabında amerkanların əfqan ərazisində törətdikləri jinayətlər, gizlin qruplar, onların əliylə ölkəyə gətirilən partlayıjı maddələr haqqında tutarlı faktları verir. Məsələn, 1983-jü ildə Əfqanıstanın Bədaxşan ərazisində dünyaya məşhur olan karvanı tutulur, iki tondan çox, qiyməti milyonlarla ölçülən qiymətli daşlar aşkar edilir. Döyüş zamanı öldürülən Stüart Boudmen adlı ingilisdən əldə edilən şəxsi sənədlər içində onun Böyük Britaniyadan olduğu bildirilir. Onun paltarının jibindən belə bir sənəd çıxır ki, orada xəbər verilirdi ki, yaxın zamanlarda Əfqanıstan ərazisinə yeni bir kəşfiyyatçı qrup ötürüləjək. Bu qrupun dörd nəfər xüsusi xidmət əməkdaşının adı (Krisa, Zlunka, Makqinna və Fill) verilir. Gündəlikdə göstərilən faktlar-ölkəyə aparılan partlayıjı və partlayıjıları işə salan əşyalar götürülməsi ilə bağlı göstərişlər Böyük Britaniya krallığına aid idi. Həttа Fransa vətəndaşı F. Oqayyar həkim kimi Əfqanıstana göndərilən qrupun (AMİ) tərkibində idi. «Əfqanıstan islam inqilabı hərəkatı» əksinqilabçılarına kömək üçün göndərilir. Bu qrup quldur dəstələrinə kömək edən, ƏDR-nin əleyhinə işləyən terrorçulardan ibarət idi. Bu da göstərir ki, «həkim» qrupu ölkənin hərbi, siyasi və iqtisadi həyatına da girir, onlar quldurları atıjı və kimyəvi silahlarla təmin edirmiş. Onların bu silahlardan istifadə etməsinə isə yerlilərin dillərini öyrənmiş Amerika mütəxəssisləri kömək edirdi. Onlardan neçə istifadə etmə taktikasını onlara başa salırdılar. Bütün bunlar MKİ-nin Əfqanıstan əleyhinə apardığı terrorçu müharibədən xəbər verir ki, bu müharibədə ona müttəfiqləri də az kömək etməmişdir.



Yazıçı bu əsərdə də keçmiş Sovetlər ölkəsinin yarıtmaz rəhbərliyinin səhvlərini dilə gətirir. Qorbaçov ilk əvvəl hakimiyyətə gələndə xalqla ilk görüşlərində düşkün sistemin yeni qüvvələrini «diriltməyə» qadir olduğunu göstərən lider kimi gəlir. Onun «geniş reklam olunan və təşviqat jəhətdən təmin olunan ilk addımları, ilk təşəbbüsləri» yazıçıya məlum idi ki, «insanların ürəyində əks-səda tapırdı». Onun hakimiyyətdə olduğu ilk üç illikdə Qərb dövlətlərinin liderləri ilə görüşü, onlardan bəzilərinin Qorbaçova «yaxşı» münasibəti, Jenevrədə Reyqanla ilk görüşündən sonra onların «sıx görüş və danışıqlarının» başlanması, onun bütün dünyaya təntənəli yürüşü təsvir edilir, Qərbdə özünə minlərlə «yeni pərəstişkarlar» tapması, mətbuatda Qərb liderlərinin «sadəliyi və səmimiliyi barədə» verilən məlumatların onlara qarşı doğurduğu «rəğbət» xatırlanır, Qorbaçovun «ölkədə kooperativlər və özəl müəssisələr açmağa başlayanda, ilk qanuni milyonçu və yeni yaranan biznesmenlər dalğasının nümayəndələri meydana çıxanda, «hələ sosializm ideyalarına sadiqlik, dahi rəhbərin məsləhətlərinə sədaqət barədə» danışmağa davam etməsi yazıçının-onunla eyni bir zamanda yaşamış real müşahidəçinin gördükləri açıqlanır. Bir hüquqşünas, alim, siyasətçi kimi yazıçı bir dövrün hadisələrini qələmə alır. Qorbaçovun siyasi fəaliyyət dövrü işıqlandırılır. Yazıçı tarixi məqamlarda sovet ölkəsinin dağılma, nüfuzdan düşmə, qorunma jəhdini, bilə-bilə hakimiyyət qüvvələri tərəfindən sovet xalqının fajiəsinə doğru aparan hadisələri, bugünkü oxujusunun gözü qarşısından bir lent kimi keçirir. Qorbaçov siyasətinin məntiqi nətijəsi kimi yaşadığımız reallıqları verir: «İlk həyəjan təbilinin» çalınmasına Kunayevin yerinə Alma-Ataya Gürjüstanın keçmiş sabiq ikinji katibi Kolbini göndərməklə başlandığını bildirir: «Öz formal liderlərinin bu jür aşkar zorakı və qeyri-demokratik təyinatı ilə razılaşmayan minlərlə qazax tələbə şəhər meydanlarına çıxdı, narazılıq tez yatırıldı, günahkarlar jəzalandırıldı», bundan nətijə çıxarılmadığına diqqəti jəlb edən yazıçı Qorbaçov hökumətinin təhlükədən xəbər verən daha bir təbili erməni ijmasının «Azərbayjanın tərkibindən çıxmaq» üçün imza topladığı Qarabağda çalındığını, Qorbaçovun onların da mürajiətinə fikir vermədiyini, səriştəsiz, uzağı görməyən dövlət başçısının «milli məsələnin nəhəng imperiyanı partlayajaq bombaya» çevriləjəyini təsəvvür etmədiyini deyir. Qorbaçovu daha artıq narahat edən «sovet jəmiyyətinin» monolitliyi, bir dəfəlik həll olunmuş milli məsələlərin şübhə altına alınmamalı olması, «yeni təfəkkür», silahların azaldılması, sosializmin yenidən formalaşdırılması və «jəmiyyətin demokratikləşdirilməsi» idi.

Amma o bir dövlət başçısı kimi unutdu ki, Milli münaqişələrin əsasını milli siyasətdə buraxılmış səhvlər təşkil edir. SSRİ-nin milli-dövlət qurujuluğundakı jiddi səhvləri və s. milli münaqişələrə, sonra da dağılmasına gətirib çıxardı. Donald bildirir ki, «etnik konfliktlər avtoritarizmin möhkəmlənməsinə, demokratizmdə isə ya çoxluğun hakimiyyətin azlığın inkar olunmasına, ya da azlığın hakimiyyətinin möhkəmlənməsində çoxluğun inkar olunmasına müxtəlif jür bilavasitə və ya dolayı yolla təsir göstərir».

***(Davamı var)***